

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# Şərq qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 129 (23.541)

*11 avqust 2020-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qәpik

*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda “Qarabağ” yatağının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edib.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və “BOS Şelf” şirkətinin baş direktoru İxtiyar Axundov Prezident İlham Əliyevə görülən işlər barədə məlumat veriblər. Bildirilib ki, “Qarabağ” dayaq bloku SOCAR-ın “BOS Şelf” şirkəti tərəfindən Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda tikilib. Qurğu neft-qaz kəşfiyyatı və hasilatı üçün nəzərdə tutulur. Dayaq bloku “Qarabağ” yatağında quraşdırılacaq stasionar dəniz özülünün üst hissəsini və göyərtə meydançasını saxlamaq məqsədilə şəbəkə tipli metal konstruksiya şəklində hazırlanıb. Bu blok dənizdə suyun dərinliyi 182 metr olan sahədə quraşdırılacaq. Dayaq blokunun quraşdırılması “Qarabağ” yatağının dərin qatlarında neft və qaz hasilatının həyata keçirilməsində böyük rol oynayacaq.

Dövlətimizin başçısı dayaq blokunun dənizə yola salınmasını bildirən düyməni basıb.

“Qarabağ” yatağı 60 milyon ton neft ehtiyatına malikdir. Yataqda 6 neft, 3 qaz və 3 suvurucu quyunun qazılması nəzərdə tutulur. “Qarabağ” yatağı Azərbaycanın ən zəngin karbohidrogen yataqlarından biridir. Bu yatağın istismara verilməsi Azərbaycanın neft strategiyasının daha uğurla reallaşdırılmasına və ölkəmizin neft gəlirlərinin artmasına böyük töhfə olacaq.

Dayaq bloku ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib.




*İcmal*

## Xalqa məhəbbət, dövlətçiliyə sədaqət – blokada vəziyyətində inkişaf edən




### *Ulu öndərin siyasi xəttini uğurla davam etdirən Prezident İlham Əliyevin diqqət və qayğısı yeni uğurlara yol açır*

Ölkəmiz, o cümlədən Türk dünyası üçün çox böyük strateji əhəmiyyət kəsb edən Naxçıvan Muxtar Respublikası sosial-iqtisadi baxımdan sürətli yüksəlişini uğurla davam etdirir, bütün sahələr üzrə təhlükəsizlik təmin olunur. 30 ildir, blokadada yaşayan qədim diyarda yüksək səviyyəli bir inkişafa nail olmaq müstəqil Azərbaycan dövlətinin tarixi uğurudur. Çünki dünyanın heç bir yerində ana torpaqdan ayrı salınan və nəqliyyat əlaqələri məhdud olan bir məkanda inkişaf meyilləri, ümumiyyətlə, nəzərə çarpmayıb və ya davamlı xarakter almayıb. Bu baxımdan blokada vəziyyətində olsa da, inkişaf edən muxtar respublikanın nümunəsi haqlı olaraq sosial-iqtisadi inkişafın Naxçıvan modeli adlandırılır. Muxtar respublikada bütün bunlara ulu öndər Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsi, Azərbaycan Prezidentinin böyük diqqət və qayğısı, sosial-iqtisadi inkişafla bağlı qəbul edilmiş Dövlət proqramlarının dəqiqliklə icrası, islahatların günün tələbləri səviyyəsində aparılması, yurda, xalqa məhəbbətlə, dövlətə, dövlətçiliyə sədaqətlə həyata keçirilən işlər nəticəsində nail olunub. Uzun müddətə hesablanmış inkişaf strategiyasının reallaşdırılması pandemiya dövründə də Naxçıvanın yüksəliş və tərəqqi dövrünü yaşamasına şərait yaradıb. Bu gün muxtar respublikanın hər bir yaşayış məntəqəsində genişmiqyaslı quruculuq işləri aparılır, şəhər və rayon mərkəzləri müasir görkəm alır.

### *Abadlaşan, inkişaf edən Şərur rayonunda yeni sosial obyektlər istifadəyə verilir*

İnkişafa qovuşan bölgələrdən biri də Şərur rayonudur. Qəbul olunmuş Dövlət proqramlarının uğurlu icrası rayonda davamlı sosial-iqtisadi inkişafı təmin edib, Şərur şəhərində və kəndlərdə genişmiqyaslı quruculuq işləri aparılıb, yeni inzibati binalar və sosial obyektlər tikilib, rahat yollar çəkilib, əhalinin rifahı yaxşılaşıb.

Bu gün Şərur rayonunda 117 mindən artıq əhali yaşayır ki, onun da 10 min 800-ə yaxını, yəni 9,2 faizi əmək pensiyaçılarıdır. Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Şərur Rayon Təşkilatının 522, Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının Şərur Rayon Təşkilatının isə 131 üzvü vardır. Dövlətimiz bu gün həmin şəxslərə qayğı göstərir, bütün məsələlərin həllinə diqqət yetirilir. İyulun 2-də Şərur şəhərində Təqaüdçülər Klubunun istifadəyə verilməsi də bu istiqamətdə görülən işlərin davamı xarakteri daşıyır.

Açılış tədbirində iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin ***“Veteranlar, ağsaqqallar milli-mənəvi dəyərlərimizin qızıl fondudur. Onlar hər cür qayğı və hörmətə layiqdirlər”*** – fikrini xatırladaraq deyib: ***“Ulu öndərin tövsiyələri əsas götürülərək bu gün Şərur şəhərində rayon veteranları və ağsaqqalları üçün yeni bina – Təqaüdçülər Klubu istifadəyə verilir. Şərur Rayon İcra Hakimiyyəti Təqaüdçülər Klubunda gənclərlə veteranların və ağsaqqalların görüşlərini təşkil etməli, milli-mənəvi dəyərlərimiz gənc nəslə aşılanmalıdır. Qızıl fondumuz olan veteranların həyat yolu gənclərə öyrədilməli, müxtəlif tədbirlər keçirilməlidir”.***

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirib.

Bina istilik sistemi ilə təchiz edilib, həyətdə abadlıq işləri aparılıb, musiqili fəvvarə quraşdırılıb. Ali Məclisin Sədri musiqili fəvvarəni işə salıb.

### *Muxtar respublika iqtisadiyyatı və onun tərkib hissəsi olan bank sektoru daim inkişafdadır*

Muxtar respublika iqtisadiyyatı və onun tərkib hissəsi olan bank sektoru gündən-günə inkişaf edir. İyulun 2-də “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon filialının yeni inzibati binasının istifadəyə verilməsi bunu bir daha təsdiq edir. Yeni binanın istifadəyə verilməsi mühüm əhəmiyyət kəsb edir. Çünki bank hər bir bölgənin inkişaf göstəricisidir. “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti 2008-ci ildən, Şərur rayon filialı isə 2014-cü ildən fəaliyyət göstərir. Filial hüquqi və fiziki şəxslər, eləcə də fərdi sahibkarlar daxil olmaqla, 6 mindən artıq aktiv bank hesabına malikdir, kredit portfeli 10 milyon 430 min manatdır. Kreditlərin fəaliyyət sahəsi üzrə bölgüsündə kənd təsərrüfatı üzrə 4 milyon 54 min manat, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə 1 milyon 598 min manat, ipoteka kreditləri 235 min manat və digər sahələr üzrə verilmiş kreditlərdir. Eyni zamanda filial 5 bankomat, 8 ödəniş terminalı və 80-ə yaxın POS-terminal vasitəsilə əhaliyə xidmət göstərir. Ötən dövrdə verilən kredit portfelinin həcmi və mövcud infrastruktur “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin formalaşdığını və inkişaf etdiyini göstərir. Yeni inzibati binanın istifadəyə verilməsi və burada müasir iş şəraitinin yaradılması isə sakinlərin etibarını qazanan filialın fəaliyyətini daha da genişləndirməsinə şərait yaradacaqdır.

İyulun 2-də “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon filialının yeni inzibati binasının istifadəyə verilməsi ilə bağlı keçirilən tədbirdə iştirak edən Ali Məclisin Sədri kollektivi təbrik edərək deyib: ***“Əhalinin etibarını qazanmaq hər bir bankın əsas fəaliyyət istiqaməti olmalıdır. Bu gün dünyada və ölkəmizdə baş verən proseslər bir daha təsdiq edir ki, hansı ölkədə bank sistemi şəffaf qurulubsa, onlar da fəaliyyətlərini davam etdirə bilirlər. Şəffaflığı təmin etməyən, yüksək faiz dərəcələri tətbiq edən bankların fəaliyyəti isə dayandırılmışdır. Ötən dövrdə “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti Azərbaycanda şəffaf fəaliyyəti ilə seçilmiş, əhali məmnunluğunun qazanılması sahəsində daim ön sıralarda olmuşdur. Əhaliyə ehtiyacı olan sahələrdə aşağı faiz dərəcələri ilə kreditlərin verilməsi, güzəştlərin tətbiqi bankın hörmət və nüfuzunu artırmışdır. Bankın kollektivi gələcəkdə də fəaliyyətini bu istiqamətdə qurmalı, yaradılan şəraitə uyğun olaraq əhaliyə keyfiyyətli xidmət göstərilməli, rayonda təsərrüfatların inkişafına və əhali rifahının yaxşılaşdırılmasına dəstək verilməlidir”.***

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin yerinə yetiriləcəyinə əminliyini bildirib, kollektivə fəaliyyətində uğurlar arzulayıb.

### *Müasir dövrün tələbinə uyğun yeni innovativ dərnəklər yaradılır*

Muxtar respublikanın məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyətinin təşkili həyata keçirilən təhsil islahatlarının əsas istiqamətlərindəndir. Həmin təhsil müəssisələrində yeni innovativ dərnəklərin yaradılması da müasir dövrün tələbidir. Muxtar respublikada bu iş Naxçıvan şəhərində başlanılıb, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində yeni innovativ dərnəklər yaradılıb və yaxşı nəticələr əldə edilib. Həmin dərnəklərə cəlb olunmuş uşaqların əl işlərindən ibarət “İstedadlı şagirdlər” albom-kataloqu nəşr edilib.

Şərur rayonundakı məktəbdənkənar təhsil müəssisələrində isə 48 dərnək fəaliyyət göstərir. Bunların da 16-sı yeni yaradılan innovativ dərnəkdir. Hazırda Culfa rayonunun məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyəti və orada yeni innovativ dərnəklərin yaradılması istiqamətində işlər görülür. Ordubad rayonunda da bu sahədə tədbirlər başa çatmaq üzrədir.

İyulun 2-də Şərur Rayon Uşaq-Gənclər Yaradıcılıq, Texniki Yaradıcılıq və Turizm-Diyarşünaslıq mərkəzlərində, eləcə də Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə yaradılmış innovativ dərnəklərin təqdimatı olub.

Dərnəklərin fəaliyyəti ilə maraqlanan Ali Məclisin Sədri deyib: ***“Bu gün Şərur rayonunun məktəbdənkənar təhsil müəssisələrində 1350-yə yaxın dərnək üzvü vardır. Yeni innovativ dərnəklərin fəaliyyətə başlaması dərnək üzvlərinin sayını daha da artıracaqdır. Şagird və gənclərin dərnəklərə cəlb olunması həm onların asudə vaxtlarının səmərəli təşkilinə, həm də istedadlarının üzə çıxarılması və milli dəyərlərimizi öyrənmələrinə xidmət edəcəkdir. Bütün bunlar isə sağlam gəncliyin inkişafında əsas məsələdir. Şagirdlər məktəbdə təhsil almaqla peşə öyrənirlərsə, dərnəklərdə də öz qabiliyyətlərini inkişaf etdirərək ikinci bir sənətə sahib olurlar”.***

Ali Məclisin Sədri muxtar respublikada innovativ dərnəklərin yaradılmasının və fəaliyyətinin təmin olunmasının əhəmiyyətini vurğulayıb, bu işdə əməyi olanlara təşəkkür edib.

### *Naxçıvanda Günəş elektrik stansiyalarının illik istehsal gücü 40,5 milyon kilovat-saata çatdırılıb*

Muxtar respublikada aparılan məqsədyönlü enerji təhlükəsizliyi siyasəti nəticəsində Naxçıvan artıq enerji alan bir diyardan enerji ixrac edən məkana çevrilib. “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq muxtar respublikada bu istiqamətdə ardıcıl tədbirlərin həyata keçirilməsi isə mövcud potensialın daha da gücləndirilməsinə imkan verir.

Kəngərli rayonunda 3 meqavat gücündə yeni Günəş elektrik stansiyasının qurulması üçün ötən il avqust ayından kənd təsərrüfatına yararsız 5 hektar ərazidə yerləşən stansiyada tikinti-quraşdırma işləri qısa müddətdə və yüksək keyfiyyətlə aparılıb, hər birinin gücü 320 vatt olan 9416 “PERC” tipli müasir “şüşə-şüşə” formalı günəş panelləri, hər birinin gücü 50 kilovat olan 61 invertor, müasir tip kommutasiya aparatları və digər elektrik avadanlıqları ilə təmin olunmuş 3 ədəd 35/0,4 kilovoltluq transformator yarımstansiyası, 1 ədəd 35 kilovoltluq qapalı paylayıcı yarımstansiya quraşdırılıb.

Yeni quraşdırılmış Günəş elektrik stansiyasının istismara verilməsi ilə Naxçıvan Muxtar Respublikasında Günəş elektrik stansiyalarının illik istehsal gücü 40,5 milyon kilovat-saata çatdırılıb. İyulun 8-də yeni Günəş elektrik stansiyası istifadəyə verilib. Bu münasibətlə keçirilən tədbirdə iştirak edən Ali Məclisin Sədri deyib: ***“Muxtar respublikada enerji təhlükəsizliyi sahəsində qarşıda duran əsas***

*Ardı 2-ci səhifədə*

## Qonaqlar tarixi-mədəni yerlər və muzeylərlə tanış olublar



Naxçıvanda keçirilən Azərbaycan-Türkiyə birgə təlimlərində iştirak edən Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçularının istirahət günlərində gəzintiləri davam edib. Gəzintilər çərçivəsində qonaqlar Naxçıvan Muxtar Respublikasının tarixi-mədəni yerləri və muzeylərı ilə tanış olublar.

Əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin abidəsi ziyarət edilib. Türkiyə Silahlı Qüvvələri hərbi qulluqçuları Heydər Əliyev Muzeyində olub, Azərbaycan-Türkiyə əlaqələrinin yaradılması və inkişafı, habelə müstəqil Azərbaycanın ordu quruculuğu sahəsində misilsiz xidmətləri olan Türk dünyasının dahi siyasi xadiminin həyatı, siyasi və dövlətçilik fəaliyyəti ilə bağlı eksponatlarla tanışlıq onlarda böyük maraq doğurub.



Türkiyəli hərbçilər “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini, Duzdağ Fizioterapiya Mərkəzini ziyarət ediblər, qədim türk-oğuz yurdu olan diyarımız haqqında onlarda zəngin təəssürat yaranıb.

**Nəriman NƏCƏFOV**

## Naxçıvanda hərbi hissələrə 9 ton qarpız təhvil verilib



Naxçıvan Muxtar Respublikasında ordumuzun qüdrətinin artırılması istiqamətində aparılan ardıcıl tədbirlərdən biri də xalq-ordu birliyinin günbəgün daha da möhkəmləndirilməsidir. Aparılan məqsədyönlü siyasətin nəticəsidir ki, bu gün muxtar respublikamızdakı ordu, birləşmə və hissələr hərtərəfli təminata, ən müasir silah-sursata və peşəkar şəxsi heyətə malikdir.

Ordu ilə xalqın birliyinin təcəssümü olaraq hər il muxtar respublikamızda yetişdirilən mövsümi meyvə-tərəvəzlər və bostan məhsulları əsgərlərə sovqat olaraq verilir.

Avqustun 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin kollektivi tərəfindən Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərində iştirak edən hərbi qulluqçulara və Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyətinə 9 ton qarpız təhvil verilmişdir.

**“Şərq qapısı”**

## Andiçmə mərasimləri keçirilib



***Naxçıvan Qarnizonu Qoşunlarında gənc əsgərlərin hərbi andiçmə mərasimi keçirilib.***

Əlahiddə Ümumqoşun Orduda keçirilən andiçmə mərasimində Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra gənc əsgərlər Vətənə sədaqət andı içiblər.

Mərasimdə polkovnik Mehman Gülməmmədov gənc əsgərlərin mənəvi-psixoloji, fiziki və döyüş hazırlığı istiqamətində keçilən dərs və məşğələlərdən danışıb.

Gənc əsgərlər adından çıxış edən Valeh Əsədov hərbi andı qəbul etmələri münasibətilə sevincli və qürurlu olduqlarını bildirib, nümunəvi xidmət edəcəklərinə və döyüş tapşırıqlarına məsuliyyətlə yanaşacaqlarına söz verib.

Çıxışların ardından general-mayor Teymur Eyyubov Naxçıvan Qarnizonunun rəisi, general-polkovnik Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdırıb. Bildirilib ki, gənc əsgərlər Naxçıvanda Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərinin keçirildiyi bir vaxtda hərbi andı qəbul edərək ordu sıralarında peşəkar döyüşçü kimi yetişəcəklərinə söz verirlər. İnanırıq ki, bu gün hərbi andı qəbul edən gənc əsgərlərimiz “Təlimdə tər, döyüşdə zəfər!” prinsipi ilə real döyüş şəraitində keçirilən təlimlərdə bütün tapşırıqları peşəkarcasına yerinə yetirən hərbçilərimiz kimi Vətənimizin müdafiəsində ayıq-sayıq dayanacaqlar.

“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasında keçirilən andiçmə mərasimində “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-mayor Niyaməddin Tağıyev Sərhəd Diviziyasının maddi-texniki bazasının xeyli möhkəmləndirilməsindən, sərhəd zastavalarının müasir texnika, avadanlıq və ləvazimatlarla təmin olunmasından, yeni sərhəd infrastrukturu yaradılmasından danışıb, hərbi andı qəbul edən gənc əsgərləri təbrik edib.



“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının zabiti, mayor Fuad Heydərov da çıxış edərək hərbi xidmətin Vətən qarşısında müqəddəs borc olduğunu qeyd edib və əsgərlərə nümunəvi xidmət arzulayıb.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra gənc əsgərlər Vətəni ləyaqətlə qoruyacaqlarına, əsgəri borclarını şərəflə yerinə yetirəcəklərinə and içiblər.

Əsgərlər adından çıxış edən Anar Suvarov onlara göstərilən diqqət və qayğını layiqincə doğruldacaqlarına, Vətənimizə şərəflə xidmət edəcəklərinə söz verib.

* * *

Andiçmə mərasimləri şəxsi heyətin tribuna önündən təntənəli keçidləri ilə başa çatıb.

Qeyd edək ki, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın müvafiq qərarına əsasən Azərbaycan Ordusunun şəxsi heyətinin təhlükəsizliyini təmin etmək və hərbi qulluqçuların yoluxmasının qarşısını almaq məqsədilə valideynlər, eləcə də ictimaiyyət və KİV nümayəndələri andiçmə mərasimlərində iştirak etməyiblər.

**Xəbərlər şöbəsi**

*Dövlət proqramı icra olunur*

## Sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası diqqət mərkəzindədir





Naxçıvan Muxtar Respublikasında uşaqların təhsili, sağlamlıqlarının qorunması, istedadlarının üzə çıxarılması, intellektual, eləcə də mənəvi inkişafı, asudə vaxtının və tərbiyəsinin düzgün təşkili, cəmiyyətin ictimai-mədəni həyatındakı iştiraklarının təmin edilməsi məqsədilə mühüm tədbirlər həyata keçirilir. Həmçinin sosial qayğıya ehtiyacı olan uşaqların ehtiyaclarının hərtərəfli təminatı, reabilitasiyası, onların yüksək mənəvi mühitdə, milli dəyərlər əsasında tərbiyəsi, təhsil alaraq layiqli şəxsiyyət kimi yetişməsi diqqət mərkəzində saxlanılır. Eyni zamanda muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların təhsil hüquqlarının təmin olunması və sosial reabilitasiyasında müasir üsullar tətbiq edilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“O cəmiyyət möhkəmdir ki, o dövlət inkişaf edərək irəli gedir ki, o xalq xoşbəxt gələcəyə malikdir ki, orada uşaqlara qayğı var”.***

Xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiya olunmasında bərpa-müalicə xidmətinin düzgün təşkili ilə yanaşı, keyfiyyətli təhsil üçün zəruri şəraitin yaradılması, müxtəlif reabilitasiya vasitələri ilə təmin olunmaları da həyati əhəmiyyət kəsb edir. Bu istiqamətdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş və inklüziv təhsilə keçid imkanlarının artırılmasına xidmət edən “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın xüsusi əhəmiyyəti vardır. Proqramda müxtəlif icra müddətləri üzrə nəzərdə tutulan tapşırıqların vaxtında yerinə yetirilməsi xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili üçün bərabər imkanların yaradılmasına, bu sahədə fəaliyyət göstərən müəssisələrin tədris bazasının müasir standartlara uyğunlaşdırılmasına səbəb olur.

Dövlət proqramının 2020-ci ilin aprel-iyun aylarında icrası davam etdirilmiş, məktəbəqədər sağlamlıq imkanları məhdud uşaqlar barədə məlumat bazası mütəmadi olaraq yenilənmişdir. Hazırda muxtar respublikada 368 məktəbəqədəryaşlı sağlamlıq imkanları məhdud uşaq vardır ki, onlardan 79-u məktəbəqədər təhsil müəssisələrində qeydiyyatdadır. İkinci rübdə əqli və fiziki imkanları ümumtəhsil müəssisələrində təhsil almağa imkan verən, lakin hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən təhsil ala bilməyən sağlamlıq imkanları məhdud 12, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində eşitmə qabiliyyəti məhdud 7 uşaqla distant dərslər, Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində isə 9 sağlamlıq imkanları məhdud uşaqla reabilitasiya yönümlü məşğələlər davam etdirilmişdir.

Sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtının səmərəli təşkili sosial reabilitasiya üçün vacib istiqamətlərdən biridir. Öyrənmə fəaliyyəti bu kateqoriyadan olan uşaqların bilik və bacarıqlara yiyələnməsinə, ideya-mənəvi tərbiyəsinə və psixi inkişafına köməklik göstərir. Əmək terapiyası onların əmək və peşə hazırlığında, əxlaqi və fiziki tərbiyəsində, xarakter və iradəsinin formalaşmasında böyük rol oynayır. İctimai fəaliyyət prosesində onlar sosial təcrübə qazanır, ünsiyyət mədəniyyətinə, kollektivçilik keyfiyyətlərinə yiyələnirlər. Dövlət proqramında da bu istiqamət üzrə tədbirlərin həyata keçirilməsi ilə bağlı tapşırıq müəyyən olunmuşdur. İkinci rübdə “Evdə qal, yaradıcılıqdan qalma!” devizi altında videoçarxın hazırlanmasında, “Evdə qal, sağlam ol!” devizi altında keçirilən onlayn tədbirdə, həmçinin “Abituriyent – 2020 buraxılış və qəbul imtahanları, ixtisas seçimi” mövzulu maarifləndirici tədbirlərdə bu kateqoriyadan olan uşaqların da iştirakı təmin olunmuşdur. 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə sosial könüllülər Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində müvafiq kateqoriyadan olan uşaqlara əl işlərinin hazırlanmasında köməklik göstərmiş, əmək terapiyasında iştirak etmişlər. Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində sağlamlıq imkanları məhdud uşaqların rəqs nömrələri nümayiş etdirmələrinə, qum terapiyası, bədii tikiş və robotexnika otaqlarının imkanlarından istifadə olunmasına şərait yaradılmışdır. Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasının əməkdaşları 9 sağlamlıq imkanları məhdud uşaqla görüş təşkil etmiş, onlara bayram hədiyyələri təqdim olunmuşdur.

Sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyasına nail olmaq üçün onların bacarıqlarının üzə çıxarılması istiqamətində tədbirlərin keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Uşağın marağına uyğun bacarıq və qabiliyyətinin müəyyən edilməsi onun cəmiyyətə daha tez inteqrasiya olunmasına və sağlamlığının sürətlə inkişaf etməsinə şərait yaradır. Dövlət proqramında da sağlamlıq imkanları məhdud uşaqların istedadlarının aşkara çıxarılması məqsədilə müxtəlif yaradıcılıq müsabiqələrinin, bilik və idman yarışlarının keçirilməsi haqqında tapşırıq müəyyən edilmişdir. İkinci rübdə onlayn qaydada 28 May – Respublika Gününə həsr olunmuş şahmat turnirində, “İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik” mövzusunda inşa yazı, “Ailə dəyərlərimiz” film və fotolarda” mövzusunda rəsm, “Naxçıvan – mənim doğma diyarım”, “Sən elə bir zirvəsən” başlıqlı şeir müsabiqələrində, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının təşkil etdiyi yay dərslərində və “Açıq havada şahmat birinciliyi” adı altında keçirilən yarışlarda sağlamlıq imkanları məhdud uşaqların iştirakı təmin edilmişdir. Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə bu kateqoriyadan olan uşaqlar arasında onlayn şəkildə “Naxçıvan – tarixi abidələr diyarı” mövzusunda asfalt üzərində rəsm müsabiqəsi təşkil olunmuşdur. Müsabiqə sosial könüllülərin iştirakı ilə videoformatda keçirilmiş, sonda iştirakçılar müvafiq hədiyyə və diplomlarla təltif olunmuşlar. İyun ayında 8 sağlamlıq imkanları məhdud uşaq arasında stolüstü tennis üzrə yoldaşlıq görüşü, bu kateqoriyadan olan 10 uşaq arasında yüngül atletika üzrə Naxçıvan şəhər, 17 uşaq arasında boccia üzrə Naxçıvan Muxtar Respublika birincilikləri keçirilmiş, bilik yarışması və onlayn qaydada yaradıcılıq müsabiqəsi təşkil edilmişdir.

Proqramın icrasına uyğun olaraq sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi və sosial inteqrasiyasının vacibliyi barədə təbliğat və ictimai maarifləndirmə işi davam etdirilir. Bu, həmin uşaqlara cəmiyyətin marağının cəlb edilməsinə və onlara xüsusi həssaslıqla yanaşılmasına səbəb olur. Aprel-iyun aylarında Dövlət proqramında müəyyən edilmiş tapşırığın icrası istiqamətində sağlamlıq imkanları məhdud uşaqların təhsili və sosial reabilitasiyası tədbirləri ilə bağlı 1 qısametrajlı videoçarx yayımlanmış, Naxçıvan Dövlət Televiziyasında 2 veriliş, 17 süjet efirə təqdim olunmuş, Naxçıvan Dövlət Radiosunda 7 veriliş hazırlanmış, “Şərq qapısı” qəzetində 5, rayon qəzetlərində 8 məqalə dərc edilmişdir.

**“Şərq qapısı”**

## Varlığımı sübut edən bir kəlmə var yer üzündə –

# Ana dilim...

(Esse)




Əzəl gündən elimizdə, obamızda, tariximizdə yaddaşımızda, mənliyimizdə, kimliyimizdə, dünənimizdə, bu günümüzdə səslənən, qəlbimizi ovsunlayan, varlığımızı sübut edən bir kəlmə var yer üzündə – Ana dilim. O dilim ki atdığımız hər addımda, aldığımız hər nəfəsdə duyuruq varlığını, hərarətini. Onun adı ilə səhərlərə gözümüzü açıb, onun qüdrətilə qaranlıq gecələrlə sağollaşırıq. O dilim ki beşik başında körpələrin ilk eşitdiyi şirin ana laylasının məlahətli səsidir. Elə qəlbimizi kövrəldən, ruhumuzu dinləndirən həmin məlahətli, harmoniyalı, nəvazişli, qayğılı səsin vəhdətində bütünləşirik, birlik oluruq, dilin qüdrətindən güc alırıq, yumruq oluruq. Gücümüzə güc qatan ana dilim hərflərdə, sətirlərdə, sözlərdə, cümlələrdə, şeirlərdə yaranıb-yaşayıb, müqəddəs milli dəyərlərimizin libasına bürünərək bizi təmsil edir. Bir sözlə, o dilim ki rəngarəng poeziya, şirin layla, ecazkar mahnı dilidir. Himnimizin məğrur, vüqarlı dilidir. O dilim ki dosta məhəbbət, düşmənə nifrət dilidir. Qardaşlıq, mübarizlik, qəhrəmanlıq dilidir. Ana qədər müqəddəs ocağın istisindən ilhamlanıb dünyanı qucaqlayan ana dilimdir...

O dilim ki illərə meydan oxuyan çətin sınaqlardan süzülə-süzülə uzun və qətiyyətli məsafələr qət edərək keşməkeşli yol keçib, nüfuzlu ədiblərin təbliği ilə cilalanıb formalaşaraq kamil qrammatik quruluşa, zəngin söz boğçasına malik şəkildə bu günümüzə gəlib çatıbdır. Orta əsrlərdə Nəsimi, Füzuli, Xətai kimi sənətkarlar, daha sonrakı əsrlərdə Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Səməd Vurğun, müasir dövrdə isə Bəxtiyar Vahabzadə bu ənənənin görkəmli nümayəndələrindəndir. Onlar öz əsərləri ilə dilə yeni-yeni sözlər gətirib, dilimizin zənginliyindən lazımınca istifadə edərək unudulmaqda olan bədii ifadələrimizi, söz xəzinəmizi mühafizə ediblər.

Ana dilinin inkişafında əməyi keçən publisistləri xatırlayarkən görkəmli dramaturq, publisist Cəlil Məmmədquluzadəni xüsusi vurğulamaq gərəkdir. Çünki "Molla Nəsrəddin" jurnalının əsas mövzularından biri məhz ana dilinin saflığı problemi idi. Cəlil Məmmədquluzadə yaradıcılığında ortaq türk ədəbi dili, ana dilinin saflığı, əlifba məsələsi aparıcı mövzular idi. Dahi yazıçı sözün təsir imkanlarını, rolunu, əhəmiyyətini yüksək qiymətləndirirdi. Böyük demokrat, ədib yazırdı: "Dünyada hər bir kəs üçün sözdən böyük yadigar yoxdur. Zira ki, mal-mülk tələf olur gedir, amma söz qalır". "Anamın kitabı" tragikomediyasında da ana dili məsələsi aktual mövzu kimi səciyyəvidir. Belə ki, rus dilinə meyilli Rüstəm bəy, fars dilinə meyilli Mirzə Məhəmmədəli, türk dilinə meyilli Səməd Vahid obrazlarının timsalında ədib XX əsrin əvvəllərində ziyalıların ana dilinə düşmən kəsilməsini, biganəliyini "başqasının ləhcəsinin şirinliyini" ürək ağrısı ilə təsvir edib.

Ana dili və ədəbiyyatın öyrənilməsində yazıçı, publisist Eynəli bəy Sultanovun da böyük xidmətləri olub. Onun "Müsəlman xalqına son söz", "Xalqa məhəbbət", "Ziddiyyət", "Zəruri izahat" və sair məqalələri qüvvətli milli-xəlqi ruhda yazılmış, ana dilinin müdafiəsinə köklənib. "Xalqa məhəbbət" məqaləsində: "Mənim xalqım! Səni azad insanlar içərisində azad, xoşbəxtlər içərisində xoşbəxt, maarifçilər arasında maarifçi görə biləcəyəmmi?" – deyən publisistin fikirlərində Vətən sevdası, birlik, maarifçilik arzusu öz əksini tapır. 1917-ci ildən isə Eynəli bəy ana dili müəllimi və sinif nəzarətçisi vəzifəsində çalışarkən latın əlifbasına keçmək uğrunda ardıcıl səylər göstərib, yeni əlifba komitəsi Tiflis şöbəsinin katibi vəzifəsini daşıyıb.

Bəxtiyar Vahabzadə müasir dövrdə dil haqqında qəzet və jurnallarda "Ana dilim-ana küküm!", "Tarix, dil, ənənə", "Ana dili", "Dil haqqında sorğu", "Bir daha ana dili haqqında", "Dil və əlifba", "Dilimiz – ədəbiyyatımız", "Dildə təbiilik və gözəllik", "Ana dili – dövlət dili" kimi məqalələrlə çıxış edib. Bu aktual publisistik məqalələrdə türkçülüyü qabardır, oxucu qarşısında dil haqqında öyrədici və yol göstərici "kompasa" çevrilir. Örnək bir əsər olan "Ana dili" şeiri şair yaradıcılığının ən monumental, şah əsərlərindən biridir ki, ana dilim haqqında deyiləcək ən mütərəqqi fikir və ideyaları özündə əks etdirib.

Ana dilim zaman-zaman ona qənim kəsilənlərlə, qəddarcasına düşmən münasibəti bəsləyənlərlə qarşılaşıb. Sovet ideologiyasının təsiri ilə ana dilimizə qarşı təqiblər olub, onun unudulması məqsədilə yazıçı və publisistlərimiz məhrumiyyətlərə, repressiyalara məruz qalıblar. Təbii ki, bunlar milli şüurumuzun bugünkü inkişafına qədər keçdiyimiz ağır, böhranlı illər, yad, soyuq münasibətlər idi. Ana dilim, o dilim ki ona var olması, yaşaması, yeni nəfəs verilməsi zamanını səbirsizliklə gözləyirdi. Dədəm Qorqudun telli sazından havalanan, Nəsiminin imdadından, Füzulinin qələmindən güc alaraq, bəlalı taleyin, sanki dilə gətirirdi.

Doğma dilimizin yenidən çiçəklənməsində, ona yenidən həyat verilməsində, totalitar sovet rejimi dövründə digər milli dəyərlərimiz kimi ana dilimizin də vurğunu, xilaskarı kimi tarixə düşən ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri vardır. Belə ki, ilk addım 1995-ci ildə Konstitusiyamızın 21-ci maddəsində öz əksini tapdı. Azərbaycan dili dövlət dili kimi qəbul edildi. 2001-ci ilin iyulunda ulu öndər "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzaladı. Eyni zamanda Dil Şurası yaradıldı. Çox keçmədi ki, 1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi təsis olundu. Azərbaycan dili gününün dövlət səviyyəsində qeyd edilməsi onun inkişafı istiqamətində ən mühüm addım oldu. Çünki ulu öndərə qədər ana dilini dövlət siyasəti səviyyəsinə qaldıran lider olmamışdı. Onun zəhmətilə şaxələnib, pöhrələnib, çiçəklənib ana dilim. Onun əllərilə Vətən, xalq, millət bir olub, doğma dilinə qucaq açıb. Bunun bəhrəsidir ki, ana dilimin mərhələli şəkildə formalaşması prosesinə ilk olaraq məktəblər, dövlət müəssisələri və mətbuat sahələri cəlb edilib. Mətbuatın ana dilimizin inkişafındakı yeri isə əvəzsizdir. Çünki dildə söz əsas meyardır. Sözün təsir gücü, ahəngdarlığı, bədii ifadəsi birbaşa peşəkar jurnalist yaradıcılığı imkanlarıdır. Bu gün mətbuat sahəsində dil normalarının qorunmasında dövlətin fəal, təsirli rolu ilə yanaşı, hər bir jurnalistin, eləcə də vətəndaşın ictimai borcunu dərindən anlaması önəmli faktordur. Azərbaycan kütləvi informasiya vasitələrində dilimizin və ədəbi dil normalarının qorunması daimi olaraq müzakirə edilir. Bildiyimiz kimi, KİV-lər cəmiyyətə informasiya çatdırmaqla yanaşı, həm də maarifləndirici və təsiredici bir vasitədir. Ana dilimizin yad təsirlərdən qorunması, onun dil normaları nəzərə alınaraq cəmiyyətə çatdırılması isə media nümayəndələrinin mənəvi borcudur. Hansısa bir internet saytında ədəbi dilimizin normaları, dilimizin düzgün yazılış qaydaları pozulursa, həmin söz oxucuların yaddaşına elə o cür də həkk olunur. Bu səbəbdən istənilən halda kütləvi informasiya vasitələrində ədəbi dil normaları qorunmalıdır.

Ulu öndərin ardıcılı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nda ana dilimizin dövlət dili kimi inkişafı, ədəbi dil normalarına əməl olunması üçün ciddi vəzifələr müəyyənləşdirilib. Bu proqram Azərbaycan dilinin inkişafı üçün geniş imkanlar açıb.

Amma etiraf edək ki, son illər saytlarda dilimizə kənar dillərin müdaxiləsi hələ də hökm sürür. Bir sıra ekspertlər mediada çalışan əksər jurnalistlərin dil normalarına əməl etməməsi məsələsini qaldırsalar da, hələ də belə təəssüf doğurucu faktlarla rastlaşırıq. Əsasən də internet jurnalistikasında yenicə fəaliyyət göstərməyə istəyənlər dil normalarını korlamaqla yanaşı, bunu "obrozovoniski" dil də adlandırırlar. Dilimizə yad sözlər daxil edir, ana dilimizin doğma sözlərini türk, ingilis dillərindəki qarşılıqları ilə əvəz edirlər. Bu isə bağışlanmaz haldır. Biz dilimizin saflığını qorumalı, sözlərin cümlə içərisindəki yerinə və təsirinə diqqət etməli, bu işdə həssas olmalıyıq. Bəxtiyar Vahabzadənin "Ana dili" şeirindəki misralar bu günün aktual dil problemləri ilə səsləşir. Dilin xalqımıza bəxş etdiyi əvəzsiz nemətləri tanımayan, şairin təbirincə desək, "ana dilində danışmağı ar bilən, modalı ədəbazlar"a qarşı barışmaz mövqedə dayanan, əvvəldən didaktika yolunu tutan şair axırıncı bənddə öz daxili tələtümlərindən və dil haqqında qayğılarından belə bəhs edib:

*Ey öz doğma dilində danışmağı ar bilən,*
*Bunu iftixar bilən , modalı ədəbazlar,*
*Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.*
*Qoy bunlar mənim olsun.*
*Ancaq Vətən çörəyi, bir də ana ürəyi*
*Sizlərə qənim olsun.*

Dilimizin işləkliyi və düzgün təbliği muxtar respublikada daim diqqətdə saxlanılan əsas məsələlərdən biridir. Elə bu səbəbdəndir ki, gənc jurnalistlərin milli vətənpərvərlik ruhunda tərbiyəsi, dil normalarını peşəkarcasına mənimsəməsi daim diqqətdə saxlanılır. Televiziya və radiolarda Azərbaycan dilinin norma və qaydalarının qorunması məqsədilə yaradılan bədii şuralar Azərbaycan ədəbi dilinin normalarının pozulması hallarının qarşısının alınmasında, bu işdə ictimaiyyətin də fəal iştirakının təmin edilməsi və operativ tədbirlərin görülməsində mühüm rol oynayır. Azərbaycan dilində əcnəbi sözlərin və ifadələrin yersiz işlədilməməsi, aparıcıların fonetik normalara əməl etməsi, reklam mətnlərinin səlis və aydın olması daim nəzarətdədir. Muxtar respublikada media sahəsində çalışan gənc jurnalistlər ədəbi dil normalarına riayət etməklə, nəinki dilimizin saflığının qorunmasında, həmçinin nümunəvi kadr potensialının formalaşmasında da əhəmiyyətli rol oynayırlar.

Dilin inkişafı istiqamətində atılan addımların ən mühümü isə 2020-ci il 8 may tarixdə "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Qanunun qəbul edilməsi oldu. Həmin qanunla İnzibati Xətalar Məcəlləsinə əlavə edilən 533-1-ci maddəyə əsasən kütləvi informasiya vasitələrində və reklam daşıyıcılarında dövlət dili normalarının pozulmasına görə fiziki, vəzifəli və hüquqi şəxslərə müvafiq cərimələr tətbiq edilib. Qanunun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 23 iyun tarixli Fərmanı ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na dəyişikliklər edilmiş, həmin dəyişikliklərə əsasən muxtar respublikada dövlət dili normalarının pozulması teleradio yayımlarında baş verdikdə Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının sədrinə, şöbə və sektor müdirinə, digər kütləvi informasiya vasitələrində aşkar edildikdə isə Naxçıvan Mətbuat Şurasının sədrinə protokol tərtib etmək səlahiyyəti verilib. Heç şübhəsiz ki, bu, qədim diyarımızın müasir media toplumunun doğma dilimizin saflığının keşiyində daha ayıq-sayıq dayanması, dilimizi bütün gözəllikləri və incəlikləri ilə təbliğ etməsi baxımından öz töhfəsini verəcək.

*Ana dilim, şirin dilim...O dilim ki kamil qrammatik quruluşa, zəngin söz fonduna, geniş ifadə imkanlarına, mükəmməl əlifbaya, yüksək səviyyəli yazı normalarına malik bir dildir. O dilim ki ən çətin və mürəkkəb fikirləri ifadə etmək gücünə, ən yüksək elmi əsərləri başqa dillərdən tərcümə etmək imkanına malikdir. O dilim ki ən yüksək səviyyədə siyasi, iqtisadi və mədəni tribunalardan eşidilir. O dilim ki siyasi müzakirələr, mədəni yığıncaqlar və elmi simpoziumların dilidir. Bizləri birləşdirən milli dəyərlərin dilidir. Kitablarımızın, elm adamlarımızın, dövlət sənədlərimizin, atributlarımızın, əsrin müqavilələrinin dilidir. O dilim ki ömrümüzü mənalandıran, xəyallarımızı qanadlandıran, dostumuza məhəbbətimizi, düşmənimizə isə nifrətimizi ifadə edən bir dildir. O dilim ki varlığımız, vüqarımız, iftixarımız, bu günümüz, sabahımızdır. "Ağ örpəkli", "ağ birçəkli" ana dilim! Hələ sənin yaşadılmağın, ən mötəbər sözlərlə, əməllərlə ucaldılmağın üçün nələr-nələr edəcəyik...*

**Türkan HÜSEYNLİ**

## Beynəlxalq Gənclər Günü ilə bağlı tədbirlər keçirilib



***Muxtar respublikada həyata keçirilən kompleks sosial müdafiə tədbirləri sağlamlıq imkanları məhdud gəncləri də əhatə edir. 12 avqust – Beynəlxalq Gənclər Günü ərəfəsində sosial könüllülərlə sağlamlıq imkanları məhdud gənclərin görüşü keçirilib.***

Sosial könüllülərin təşəbbüsü, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Gənclər Fondunun birgə təşkilatçılığı ilə keçirilən görüşdə sosial könüllülər muxtar respublikanın şəhər və rayonlarında yaşayan müvafiq kateqoriyadan olan gənclərlə görüşüb, onlara Beynəlxalq Gənclər Günü münasibətilə hədiyyələr təqdim ediblər. Könüllülər gənclərlə birgə vaxt keçirib, onların gündəlik məşğuliyyətləri, yaradıcılıqları ilə tanış olublar. Keçirilən görüş böyük sevinclə qarşılanıb.

Qeyd edək ki, muxtar respublikada əlamətdar günlər münasibətilə sosial qayğıya ehtiyacı olan şəxslərlə görüşlər artıq ənənə halını alıb və bu kimi tədbirlərin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

* * *



***Naxçıvan şəhərindəki Sahil Parkında gənclər arasında stolüstü tennis üzrə muxtar respublika birinciliyi keçirilib.***

Birinciliyin keçirilməsində məqsəd Beynəlxalq Gənclər Gününün qeyd edilməsi, gənclər arasında bədən tərbiyəsi və idmanın kütləviliyinin təmin edilməsi, onların asudə vaxtlarının səmərəli keçirilməsi, o cümlədən stolüstü tenis idman növünün inkişaf etdirilməsi olub. Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman, Təhsil nazirlikləri və Gənclər Fondunun birgə təşkilatçılığı ilə keçirilən birincilikdə 26 idmançı iştirak edib.

Yarışın yekun nəticəsinə əsasən qızlar arasında Xurşud Mahmudova, Alsu Məmmədli və Duyğu Əliyeva ilk üç pillədə qərarlaşıblar. Oğlanların mübarizəsində qalib adını Naxçıvan Dövlət Universitetinin tələbəsi, nigeriyalı Olabide Sadare Samuel qazanıb. Əkrəm Rəhimli ikinci, Mirnəsib Seyidzadə isə üçüncü olub.

Sonda qaliblər təşkilatçılar tərəfindən hədiyyə və diplomlarla təltif olunublar.

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**


### İtmişdir

Haqverdiyeva Şəbnəm Əliyar qızının adına olan 0200573942 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Cəlilkəndində yaşamış Abdullayev Mahmud Fərman oğlunun adına verilmiş JN-38A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Bulqan kəndində yaşamış Axundov Çölü Abbas oğlunun adına verilmiş JN-966A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Həşimov Vüqar Rza oğlunun adına olan 0200307122 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayon Axaməd kənd sakini Məmmədov Xudaverdi Hüseyn oğlunun adına olan JN-0026 inventar nömrəli 10216038 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 584